# Qaradağ rayonunda şəhid Mirzəliyev Kamalın xatirəsi anılıb









**30 avqust 2023-cü il tarixdə Qaradağ rayonunda şəhid Kamal Əjdər oğlu Mirzəliyevin doğum günündə xatirsəi anılıb.**

Anım mərasimində YAP Qaradağ rayon əşkilatının sədri Qafar Əliyev, Qaradağ rayon İcra Hakimiyyəti Başçısınnı birinci müavini Emil Abbasov, şəhidin ailə üzvləri və rayon ictimaiyyətinin nümayəndələri iştirak ediblər.

Vətənimizin bölünməzliyi, torpaqlarımızın azadlığı uğrunda gedən döyüşlərdə şəhidlik zirvəsinə yüksəlmiş igidlərimizdən biri Mirzəliyev Kamal Əjdər oğludur.

Mirzəliyev Kamal Əjdər oğlu 30 avqust 1996-cı ildə Şamaxının Çarhan kəndində, zəhmətkeş ailədə anadan olub. Sonradan ailələri Bakının Qaradağ rayonunun Sahil qəsəbəsinə köçmüşdür. Kamal orada 273 saylı məktəbdə orta təhsil almışdır. Məktəbi bitirdikdən sonra Kamal 2016 - cı ildə hərbi xidmətə gedib və Aprel döyüşlərinin iştirakçısı olub. O, ordudan tərxis olunduqdan sonra Bakı Gəmiqayırma Zavodunda əmək fəaliyyətinə başlayıb. 2020-ci ilin Sentyabrın 27 - də İkinci Qarabağ savaşı başlayanda könüllü olaraq cəbhəyə gedib və kəşfiyyat bölüyündə xidmət edib. Xeyli vaxtdan bəri Kamalın qəlbini bir hiss rahat buraxmırdı. Torpaqlarımızı 30 ilə yaxın işğal altında saxlayan xain düşməndən intiqam almaq hissi.O,Talış kəndi və strateji əhəmiyyətli Suqovuşan istiqamətində gedən döyüşlərdə yaralansa da, tibbi yardım aldıqdan sonra özünün qətiyyətli təkidi ilə yenidən ön cəbhəyə qayıtmış və Oktyabrın 17-i tarixində müharibənin qızğın dövründə Talış Suqovuşan istiqamətində gedən döyüşlər zamanı orada yaralı əsgər yoldaşlarını döyüş meydanından çıxaran zaman düşmənin artilleriya zərbəsi nəticəsində qəhrəmancasına şəhid olub.

**O, müharibədə göstərdiyi rəşadətə və igidliyə görə Ali Baş Komandan İlham Əliyevin müvafiq sərəncamları ilə "Vətən uğrunda ", "Suqovuşanın azad olunmasına görə" medalları ilə təltif olunmuşdur. Şəhid Kamal Əjdər oğlu Mirzəliyev Qaradağ rayonunun Lökbatan qəsəbəsindəki "Şəhidlər Xiyabanı"nda dəfn olunub.**

**Allah rəhmət eləsin!**

**Rəşad ŞİRƏLİYEV**